

# PLANETAR DÜŞÜNCƏLİ ALİM

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU
DÜNYA ƏDƏBİYYATI VƏ KOMPARATİVİSTİKA ŞÖBƏSİ

# PLANETAR DÜŞÜNCƏLİ ALİM

Azərbaycan MEA Nizami
adına Ədəbiyyat İnstitutunun
kitabxanası
Inv. № 49531

"Elm və təhsil"
BAKI – 2024

Elmi redaktoru: **Mehman Həsənli**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Planetar düşüncəli alim.**
Bakı, "Elm və təhsil", 2024, 112 səh.

Kitabda Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Dünya ədəbiyyatı və komparativistika şöbəsi əməkdaşlarının akademik İsa Həbibbəylinin çoxcəhətli elmi-təşkilati fəaliyyətinə həsr edilmiş məqalələri toplanılmışdır.

4702000000 / N-98-2024 qrifli nəşr

© Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, 2024



**Гюляр АБДУЛЛАБЕКОВА**
Д.ф.н., проф. заведующий отделом
Мировой литературы и компаративистики

## УЧЕНЫЙ ПЛАНЕТАРНОГО МЫШЛЕНИЯ

*Мыслящий и работающий человек есть мера всему.*
*Он есть огромное планетное явление.*

***В.И.Вернадский***

Азербайджанская филологическая наука внесла значительный вклад в развитие как советской, так и мировой духовной культуры. Имена выдающихся учёных Назакет Агазаде, Азады Рустамовой, Мамед Джафара Джафарова, Азиза Мирахмедова, Гюльрух Алибейли, Мамед Арифа, Азиз Шарифа, Аббаса Заманова, Бекира Набиева и многих других – это имена корифеев национальной науки, вписанные в летопись истории науки Азербайджана. Это люди, заложившие основы отечественного литературоведения, подготовившие десятки, сотни национальных кадров, с честью представляющих сегодня науку Азербайджана как на родине, так и далеко за её пределами. Сегодня их ученики это учёные среднего поколения, окончившие аспирантуру в советское время, с гордостью хранящие дипломы о присуждении им научных степеней, выданных Высшей Аттестационной

Комиссией СССР, подтверждающих признание азербайджанской науки далеко за пределами их родины.

Статья, посвященная Президенту Академии наук Азербайджана, которую я представляю научной общественности, отражает деятельность талантливого азербайджанского учёного, человека высокой культуры и тонкой души Иса Акперовича Габиббейли, действительного члена Международной Академии Информатики (2006), Почётного члена Общества Культуры, Языка и Истории им. Ататюрка (2010), депутата Милли Меджлиса четырёх созывов (2005-2024), Председателя Комитета по Науке и Образованию Милли Меджлиса (2015), Директора Института Литературы имени Низами Гянджеви (2013), заслуженного деятеля науки, Действительного члена НАНА (2001), Академика НАНА (2003).

Иса Габиббейли благодарный ученик, и тем, что он состоялся сегодня как учёный он обязан также и своему учителю, выдающемуся азербайджанскому учёному, человеку с большой буквы, человеку редкого благородства, альтруизма и бескорыстного служения науке, академику Мамед Джафару Джафарову.

Письмо-благодарность, написанное им М.Д.Джафарову и преисполненное трепетных чувств, свидетельствует о таланте И.Габиббейли как писателя-мемуариста, это письмо–поэма, посвящённая дорогому и духовно близкому человеку, единственному и





главному учителю, направляющему своего ученика по тернистой дороге научных поисков и дерзаний. И.Габиббейли учёный планетарного мышления, он с одинаковой лёгкостью ориентируется как в зарубежной, так и в азербайджанской литературе. Это учёный, глубоко постигший духовные ценности как национальной, так и мировой литературы: от Мухаммеда Хади и Гусейна Джавида до Адама Мицкевича и Александра Пушкина. Ему близка и понятна как русская литература Золотого и Серебряного века – творчество А.Ахматовой, Н.Гумилёва, так и литература Европы, Латинской Америки и США (Г.Маркес, Т.Драйзер).

Особые чувства испытывает И.Габиббейли к творчеству Э.Хемингуэя. Выступая на конференции, проведенной в Институте Литературы им Низами Гянджеви 11 июня 2019 года, посвящённой 200-летнему юбилею писателя, он провёл компаративные параллели между творчеством американского писателя и представителя критического реализма, азербайджанского писателя Джалила Мамедгулузаде: «Их объединяет тема «маленького человека, его страдания, переживания, борьба за сохранение моральных ценностей», – отметил учёный в своём выступлении. И.Габиббейли рассказал о своих поездках на родину Э.Хемингуэя в город Ки-Вест, где побывал в музее писателя и не преминул напомнить о своей родине Азербайджане, преподнося в дар музею книги амери-

канского писателя, переведённые на азербайджанский язык. Будучи ректором Нахичеванского Государственного университета И.Габиббейли создал музей Э.Хемингуэя, где студенты читают писателя в оригинале и переводят его произведения с английского на азербайджанский язык.

Особо следует отметить деятельность Исы Акперовича Габиббейли как ректора Нахичеванского Государственного Университета (1996-2013). Благодаря его самоотверженной работе Университет сегодня стоит в одном ряду с самыми престижными высшими учебными заведениями Европы. В Университете, территория которого охватывает 108 гектаров, обучаются студенты из стран СНГ и зарубежных стран Востока и Запада. Университет оснащён передовыми информационно-коммуникативными технологиями, инновационными процессами.

В 2013 году Иса Акперович Габиббейли избирается на должность вице-президента Национальной Академии наук Азербайджана. Учёный курирует Отделением гуманитарных и общественных наук.

В этом же году его назначают директором Института литературы им. Низами Гянджеви. Спустя некоторое время в Институте литературы появляется крылатая фраза, связанной с приходом Исы Акперовича в наш Институт: «Нахичеванский Университет потерял, Академия наук обогатилась».





В 2022 году Иса Акперович Габиббейли избирается Президентом Национальыной Академии наук Азербайджана. С 1913 по 2019 год – это период Возрождения в истории Института Литературы им. Низами Гянджеви. Культура общества определяется по отношению общества к женщине. Огромное значение придаёт Иса Акперович Габиббейли участию женщины в управленческом аппарате Отделения гуманитарных и общественных наук. Так, в Институте Литературы им.Низами на руководящих должностях работает значительное число женщин.

В Институте Литературы по инициативе И.Габиббейли открыт целый ряд новых отделов, охватывающих все этапы исторического развития азер-байджанской литературы, отдельные её области, требующие особого исследования: Отдел Детской литературы, Отдел Физуливедения, Отдел Литературных направлений и т.д.

Благодаря неустанной творческой деятельности академика И.Габиббейли Институт Литературы им. Низами Гянджеви сегодня вливается в общий поток европейских научных исследований, заключает договора о сотрудничестве и взаимосвязях с ведущими академическими институтами СНГ и Европы.

Научная деятельность академика И.Габиббейли охватывает все области азербайджанского литературоведения: историю и теорию литературы, сравнительное литературоведение и критику. Особый ин-

терес представляет последнее исследование академика И.Габиббейли, посвящённое периодизации азербайджанской литературы. Это исследование, столь необходимое каждому учёному-литературоведу, станет настольной книгой каждого учёного.[1]

У исследователя, учёного различных специализаций есть своя любимая область, свой творческий объект. У академика И.Габиббейли таким любимым творческим объектом является талантливый азербайджанский писатель, представитель критического реализма в азербайджанской литературе Джалил Мамедкулизаде. В 1996 году И.Габиббейли защитил докторскую диссертацию на тему «Джалил Мамедкулизаде: среда и современники». Джалил Мамедкулизаде остался в орбите творческих исследований ученого на всю жизнь. Джалилу Мамедкулизаде учёный посвятил сотни статей, десятки книг, изданных как на азербайджанском, так и на различных иностранных языках.

И.Габиббейли глубокий психолог, прекрасно определяющий особенности личности, творческий и научный потенциал каждого сотрудника руководимой им организации. Уважение и душевная теплота характеризуют его отношения с учёными и исследователями Института и находящихся в его курации Отделения Общественных и Гуманитарных наук. Он создаёт все условия для наиболее полного раскрытия

[1] İsa Həbibbəyli Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. "Bakı", 2019.





творческих возможностей ученых. Так, впервые в Институте Литературы по инициативе И.Габиббейли был создан отдел «Литературоведение - Художественное творчество», где учёные-филологи активно участвуют как переводчики, поэты и писатели. Особо хотелось бы выделить деятельность сотрудников Центра Мировой литературы, окружённых особым вниманием и заботой И.Габиббейли. Они представляют общественности стихи и прозу выдающихся писателей Европы, Америки, Дальнего Востока в переводах с оригинала: с русского, английского, немецкого, польского, японского и других языков.

Коллектив учёных Института Литературы и, особо хотелось бы выделить отдел Мировой литературы и компаративистики, глубоко уважают и искренне любят Ису Акперовича, внимательно прислушиваются к его советам, своевременно выполняют его поручения, стараясь сохранить высокий имидж Института Литературы им. Низами Гянджеви, созданный талантливым учёным и организатором академиком Иса Габиббейли.

Сегодня Институт Литературы оснащён высокими информационно-коммуникативными технологиями, выделяется инновационными процессами.

Научная и общественная деятельность академика Иса Акперовича Габиббейли, преисполненная высокого гражданского духа и направленная на совершенствование и формирование современного литера-

туроведения, получила высокую оценку государства. Указом Президента Республики Азербайджан Ильхама Алиева учёный был удостоен высоких наград: 9 октября 1999 года «Заслуженный деятель науки Азербайджана»,16 октября 2007 года Орден «Слава», 3 августа 2009 года Орден «Чести», 2009, год Почётный орден Высшей ассамблеи Нахичеванской Автономной Республики, 2009 год Почётный орден Национальной Академии наук Азербайджана, ордена «Славы» (2017 г.), 15 октября 2019 года Ордена «За службу Отечеству» I степени, (2019) Иса Акперович Габиббейли полон юношеской энергии и запала, который передаётся всем окружающим его единомышленникам. Таким же он был, когда мы вместе учились в аспирантуре Института Литературы им. Низами Гянджеви в 70-е годы.

Иса Акперович Габиббейли полон творческих планов и замыслов, отмеченных чувством высокого патриотизма. Мы желаем ему ещё больших успехов и удач в его многогранной и непростой деятельности на благо Отечества.





**Lyudmila SƏMƏDOVA**
*Filologiya elmləri doktoru, dosent*

## BÖYÜK ƏDƏBİYYATŞÜNAS ALİM VƏ NƏZƏRİYYƏÇİ
### *(Akademik İsa Həbibbəylinin 75 yaşı tamam olur)*

Mən akademik İsa Həbibbəylini qiyabi çoxdan tanıyırdım; çünki onun dəyərli kitablarını, məqalələrini oxumuşdum və müəllif haqqında məndə çox müsbət təəssürat və təsəvvür yaranmışdı. 2013-cü ildə İsa müəllim Naxçıvan Dövlət Universitetindən Milli Elmlər Akademiyasına vitse-prezident və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutuna direktor vəzifəsinə gələndə, bütün əməkdaşlar ilə, o cümlədən bizim şöbənin işçiləri ilə də şəxsən görüşüb tanış olmuşdu. Lakin daha yaxından tanışlığımız xoş bir təsadüf nəticəsində – mənim vaxtilə Bakı Dövlət Universitetində elmi rəhbərlik etdiyim magistrantım, sonralar isə "Elm" nəşriyyatının direktoru olmuş Səbuhi Qəhrəmanov vasitəsilə olmuşdu. Necə olursa, bir dəfə İsa müəllim nəşriyyatda mənim təzəcə çap edilmiş "Tərcümə mətninin redaktəsi" kitabımı görərək onunla maraqlanmışdı. Səbuhi: "Lyudmila xanım Səmədova sizin institutun əməkdaşıdır"– deyəndə İsa müəllim: "Bilirəm, bu bizim Lyudmila xanımdır. Bəs nə əcəb təzə kitabından mənə verməyib?" – deyə soruşur. Səbuhi isə belə cavab vermişdi: "Hələ tirajı özü də almayıb, zəng etmişik, gəlib aparsın".

Bu söhbəti Səbuhi nəşriyyatda mənə danışandan sonra mən həmin kitabdan bir nüsxə götürüb İsa müəllimə hədiyyə etdim. İsa müəllimin kitabla çox maraqlandığını onda gördüm ki, hörmətli akademik qızıl vaxtını sərf edərək kitabımı tamam-kamal oxuyandan sonra, bu barədə mənimlə xeyli danışdı və fikir mübadiləsi apardı. Sonralar mənim xahişimlə İsa müəllim iki kitabımın elmi redaktoru oldu: 1) "Восточная тематика в творчестве Н.С.Гумилева". Монография. Научный редактор: академик Иса Габиббейли. Баку, "Elm və təhsil", 2017, 228 стр. və 2) "Коранические мотивы в западноевропейской и русской литературе". (На материале творчества И.В.Гете, А.С.Пушкина, Л.Н.Толстого, Н.С.Гумилева. Научный редактор: академик Иса Габиббейли. Баку, 2019, 200 стр).

Onu da deyim ki, şəxsi tanışlığımızdan sonra İsa müəllim daim mənim elmi fəaliyyətimlə, yazdığım məqalə və kitablarla maraqlanır. Xüsusən zəngin rus ədəbiyyatına, Azərbaycan-rus ədəbi əlaqələrinə, komparativistikaya, Qumilyov yaradıcılığına, həmçinin Qərbdə Şərq ədəbiyyatının, Quran motivlərinin tərcüməsi və tədqiqinə, ümumiyyətlə tərcümənin tarixi və nəzəriyyəsinə dair və s. mövzularda fikir və mülahizələrini mənimlə bölüşür, elmi məclislərdə fəal iştirak etməyimi tövsiyə edir. Mənim fikrimcə, Akademik İsa Həbibbəyli ədəbiyyatşünaslığın, nəzəri-estetik fikrin, ədəbiyyat tarixinin, demək olar ki, bütün sahə və istiqamətlərində yazdığı məqalə və kitabları ilə öz orijinal mövqeyini və elmi fikrini sərrast şəkildə ictimaiyyətə çatdırmışdır. Onun xüsusən türk xalqlarının ictimai fikrinə, ədəbiyyatına və mədəniyyətinə (Mustafa Kamal Atatürk, Nursultan Nazarbayev, Məhtimqulu Fəraqi, Çingiz Aytmatov, Oljas Süleymenov, Camal Kamal və b.) göstərdiyi münasibət təqdirəlayiqdir.





Akademik İsa Həbibbəylinin anadan olmasının 75 illiyi münasibətilə mən onun haqqında bir qədər ətraflı söhbət etmək istəyirəm.

İsa Əkbər oğlu Həbibbəyli 1949-cu il oktyabrın 16-da Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Danzik (etimoloji mənası Dan yeri) kəndində anadan olmuşdur. Atası Əkbər Əlibəy oğlu Həbibbəyli doğma kəndində 50 ildən artıq müəllimlik etmiş, tanınmış ziyalılardan biri olmuşdur.

İsa Həbibbəyli ilk təhsilini Şərur rayonundakı Danzik kənd orta məktəbində almış, 1966-cı ildə Oğlanqala (keçmiş Ulya Noraşen) kənd orta məktəbini bitirmişdir. Hələ orta məktəbdə oxuduğu illərdə "Pambıqçı uşaqlar" adlı ilk məqaləsi "Azərbaycan pioneri" qəzetində (1964), daha sonra isə məqalə və şeirləri "Azərbaycan gəncləri", "Şərq qapısı", "İşıqlı yol" qəzetlərində çap olunmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının Azərbaycan dili və ədəbiyyatı fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir (1971). Ali məktəb illərində Tələbə Elmi Cəmiyyətinin sədri olmuş, Bakıda, Naxçıvanda və Tbilisidə tələbə elmi konfranslarında maraqlı məruzələrlə çıxış etmişdir. Dövri mətbuatda ilk elmi məqalələri və şeirləri çap olunmuşdur.

1971-1974-cü illərdə İsa müəllim Şərur rayonunda orta məktəbdə müəllim işləmişdir. 1972-ci ildə hərbi xidmətdə olmuşdur. O, 1975-ci ildə Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunun Ədəbiyyat kafedrasında müəllim işləmişdir.

İsa Həbibbəyli 1973-cü ildə AMEA-nın Nizami (Gəncəvi) adına Ədəbiyyat İnstitutunun aspiranturasına – akademik Məmməd Cəfər Cəfərovun rəhbərlik etdiyi Ədəbiyyat nəzəriyyəsi şöbəsinə həmin ixtisas üzrə daxil olmuşdur. O, 14 mart 1980-ci ildə "XX əsrin əvvəlləri Azərbaycan romantik lirikası" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1996-cı ildə İsa müəllim XX əsr Azərbaycan ədəbiyyatının görkəmli xadimlərindən olan Cəlil Məmmədquluzadəyə həsr etdiyi "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" adlı doktorluq dissertasiyasını müdafiə etmişdir. Növbəti il isə professor elmi adına layiq görülmüşdür.

İsa müəllim 1991-1996-cı illərdə Naxçıvan Dövlət Universitetinin elmi işlər üzrə prorektoru, 1996-2013-cü illərdə isə həmin universitetin rektoru vəzifəsində çalışmışdır. Universitetə rəhbərlik etdiyi müddətdə İsa müəllimin elm, təhsil və təşkilatçılıq sahəsində əldə etdiyi nailiyyətlər Naxçıvan Dövlət Universitetinin fəaliyyətini xeyli dərəcədə inkişaf etdirmişdir.

İsa müəllim ədəbiyyatşünaslıq elmində əldə etdiyi nəticələrə görə, 2001-ci ildə Azərbaycan MEA-nın müxbir üzvü, 2003-cü ildə isə AMEA-nın həqiqi üzvü seçilmişdir. O, 1999- cu ildən Əməkdar elm xadimidir.





Akademik İsa Həbibbəyli 24 aprel 2013-cü il tarixindən Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti vəzifəsində çalışmışdır. O, 19 iyun 2013-cü il tarixdən həm də Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktorudur. Akademiyada Nizamnamə Komissiyası onun sədrliyi ilə 2013-2014-cü illərdə müstəqillik dövrü Milli Elmlər Akademiyasının yeni nizamnaməsinin hazırlanıb təsdiq edilməsinə nail olmuşdur. Bundan başqa, İsa Həbibbəyli Azərbaycançılıq konsepsiyasına dair layihə hazırlayıb çap etdirmişdir. O, eyni zamanda, Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi konsepsiyasının da müəllifidir. İsa Həbibbəylinin təşəbbüsü ilə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Nizamişünaslıq", "Azərbaycan mühacirət ədəbiyyatı", "Ədəbi tənqid", "Mətbuat tarixi və publisistika", "Azərbaycan-Asiya ədəbi əlaqələri", "Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri" şöbələri, "Füzulişünaslıq" sektoru, "Beynəlxalq əlaqələr", "Elmi nəşrlər və proqnozlaşdırma", "Təhsil şöbəsi" kimi köməkçi şöbələr yaradılmışdır. Milli Elmlər Akademiyasında və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda bir sıra beynəlxalq elmi konfransların keçirilməsində və xarici ölkələrin elmi qurumları ilə geniş əlaqələrin yaradılmasında da İsa Həbibbəylinin özünəməxsus rolu vardır. Onun təşəbbüsü ilə 2014-cü ildən respublika miqyasında və beynəlxalq səviyyədə "Fizika və lirika: dünya təcrübəsi və ölkə reallıqları" mövzusunda simpoziumlar keçirilir.

Akademik İsa Həbibbəylinin Azərbaycan Milli Elmlər Akademiyasında və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda çalışdığı son 11 il ərzində onun yüksək təşkilatçılıq bacarığının nəticəsi olaraq Akademiyanın fəaliyyətində, xüsusilə ictimai və humanitar elmlər sahəsində əsl canlanma meydana gəlmişdir; əməkdaşlarımız daha çox ruh yüksəkliyi ilə çalışırlar, elmi dərəcə və elmi ad alanların sayı isə durmadan artır.

İsa müəllim məhsuldar elm xadimlərimizdən biri olaraq, ümumiyyətlə 90-a yaxın kitabın, o cümlədən 15 monoqrafik əsərin, 20-dən çox tərtib kitab və broşuranın, 1400-dən artıq elmi, publisistik məqalənin müəllifidir. Onun xaricdə çap etdirdiyi elmi məqalələrin sayı 200-dən çoxdur. İsa Həbibbəyli neçə-neçə elmi, ədəbi, publisistik kitabların redaktoru və rəyçisidir.

Görkəmli alimin kitablarından bəzilərinin adlarına nəzər salaq: "Romantik lirikanın imkanları", "Ədəbi yüksəliş", "Ədəbiyyat nəzəriyyəsi", "Cəlil Məmmədquluzadə", "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri", "Mirzə Ələkbər Sabirin həyat və yaradıcılığının əsas tarixləri", "Məhtimqulu Fəraqi", "Yollar şeirdən başlanmışdı", "Akademik Səməd Vurğun Vəkilov", "Xalq şairi Məmməd Araz", "Ustad Məhəmmədhüseyn Şəhriyar", "Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti", "Ədəbi şəxsiyyət və zaman", "XX əsrin əvvəlləri Azərbaycan yazıçıları", "Nuhçıxandan – Naxçıvana", "Ədəbi-tarixi yaddaş və müasirlik", "Böyük ədəbiyyat nəhəngi Məmməd Səid Ordubadi", "Heydər Əliyev: dövlətçilik təlimi və müasir dövr", "Naxçıvan xalçaçılığı: ənənə və müasirlik", "Duzdağ mozaikası", "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" və s. kitabları ümumən Respublikamızda dəyərincə müsbət qarşılanıb və yüksək qiymətləndirilmişdir.





Mən İsa müəllimin hələlik axırıncı olan kitabı – "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" fundamental əsəri haqqında bir neçə kəlmə yazmaq istəyirəm. Əvvəlcə oncildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin birinci cildində müqəddimə kimi verilmiş bu tədqiqat sonra ayrıca bir monoqrafiya olaraq nəşr edildi (Bakı, "Elm", 2019, 452 s.).

İsa müəllimin geniş, əhatəli elmi-nəzəri monoqrafiyası aşağıdakı bölmələrdən ibarətdir:

1. *Giriş;*
2. *Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi üzrə axtarışlar;*
3. *Ədəbiyyat tarixçiliyində yeni mərhələ;*
4. *Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin elmi təsnifatına doğru;*
5. *Azərbaycan ədəbiyyatı tarixinin yenidən dövrləşdirilməsi zərurəti;*
6. *Azərbaycançılıq konsepsiyası ;*
7. *Azərbaycan ədəbiyyatı tarixinin inkişaf mərhələləri;*
8. *Nəticə.*

İsa müəllim Azərbaycan ədəbiyyatı haqqında yazır:

"Azərbaycan ədəbiyyatı – Azərbaycanda və dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların yaratdıqları böyük ədəbiyyatdır;

Millilik və bəşərilik, Azərbaycançılıq və birlik idealları, habelə yüksək bədiilik Azərbaycan ədəbiyyatının əsas xüsusiyyətləridir;

Azərbaycan ədəbiyyatı – Azərbaycan xalqının dilində yaranan böyük ədəbiyyatdır;

Eyni zamanda, hansı dildə yazılmasından asılı olmayaraq, azərbaycanlıların ölkəmizin milli dəyərlərinə və dövlətçilik maraqlarına xidmət edən bədii əsərləri Azərbaycan ədəbiyyatıdır;

Azərbaycan ədəbiyyatı davamlı tarixi-ədəbi ənənəsi olan və daim inkişaf edib müasirləşən dayanıqlı ədəbiyyatdır;

Azərbaycan ədəbiyyatı dünya ədəbiyyatının tərkib hissəsidir".

Akademik İsa Həbibbəyli ədəbiyyatımızı belə dövrləşdirir:

1. *Qədim dövr Azərbaycan ədəbiyyatı. Etnosdan-eposadək (ən qədim dövrlərdən VII əsrə qədər).*
2. *Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü (VII-X əsrlər).*
3. *İntibah dövrü Azərbaycan ədəbiyyatı (XI-XII əsrlər).*
4. *Orta əsrlər Azərbaycan ədəbiyyatı (XIII-XVI əsrlər).*
5. *Azərbaycan ədəbiyyatında erkən realizm dövrü (XVII-XVIII əsrlər).*
6. *Azərbaycan ədəbiyyatında maarifçi realizm dövrü (XIX əsr).*
7. *Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm epoxası (XIX əsrin doxsanıncı illərindən Azərbaycanda sovet hakimiyyətinədək).*
8. *Azərbaycan ədəbiyyatında sosialist realizmi dövrü (1920-1960-cı illər).*
9. *Milli-mənəvi özünüdərk və istiqlal ədəbiyyatı mərhələsi. Modernizm (1960-1980-ci illər).*
10. *Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı (1991-ci ildən).*





Akademik İsa Həbibbəylinin 2013-2015-ci illər ərzində ədəbi-elmi axtarış, düşüncə, təhlil və araşdırmalarının yekunu olaraq ortaya qoyduğu bu tədqiqat çox dəyərli bir monoqrafiyadır. Bu əsər ədəbi-elmi ictimaiyyətin çoxdan gözlədiyi və onun üçün çox zəruri olan bir nəzəri-konseptual istiqaməti özündə əks etdirir.

İsa müəllimin yazıb çap etdirdiyi çoxlu sayda dərslik, dərs vəsaiti, proqram və metodiki göstərişləri təhsil və maarif işçiləri üçün böyük pedaqoji-tədris əhəmiyyətinə malikdir.

İsa Həbibbəylinin əsərləri Azərbaycan dilindən başqa bir çox xarici dillərə – ingilis, rus, fransız, polyak, urdu, ərəb, türk, bolqar, litva, macar, gürcü və s. tərcümə ediləərk çap olunmuşdur. İsa müəllimin ABŞ, Qırğızıstan, İngiltərə, Çin, Fransa, Qazaxıstan, Türkmənistan, Almaniya, İran, Rusiya, Türkiyə, Cənubi Koreya, Misir, İspaniya, Bolqarıstan, Monqolustan, İraq və digər ölkələrdə keçirilən beynəlxalq simpozium, qurultay və konfranslarda etdiyi elmi məruzələr onun beynəlxalq aləmdə, xüsusən də İran, Türkiyə, Rusiya, Orta Asiya ölkələrində şöhrət qazanmasına zəmin yaratmışdır. Akademik İsa Həbibbəylinin XIX-

XX əsrlər Azərbaycan ədəbiyyatının mərhələ və problemlərinin, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Məmməd Tağı Sidqi, Eynəli bəy Sultanov, Məhəmməd ağa Şahtaxtinski, Hüseyn Cavid, Məmməd Cəfər Cəfərov və b. görkəmli şəxsiyyətlərin irsinin, habelə müasir ədəbiyyatımızın nümayəndələrinin yaradıcılığının araşdırılmasını, romantik poeziyanın nəzəri problemlərinin, poetikasının tədqiq edilməsini, Azərbaycan ədəbiyyatında dövrləşdirmə konsepsiyasına və inkişaf mərhələlərinə aid əldə etdiyi elmi nailiyyətləri ədəbi-elmi ictimaiyyət yüksək qiymətləndirir.

İsa müəllimin ilk gənclik dövründən şeir yazması da məlumdur. Onun hətta bir sıra şeirlərinə musiqi də bəstələnmiş, sözləri ona məxsus olan "Naxçıvan marşı" (musiqisi Aqşin Əlizadə) və "Akademiya marşı" (musiqisi Vaqif Gərayzadə) yüksək səviyyədə respublika ictimaiyyətinə təqdim olunmuşdur. İsa müəllim həm də ssenarilər müəllifidir, bir sıra teatr tamaşalarında və filmlərində ədəbi məsləhətçi qismində iştirak etmişdir.

Akademik İsa Həbibbəylinin elm və təhsil sahəsindəki nailiyyətləri qədərincə çoxdur. Alim və ədib İsa müəllim bu gün də öz tədqiqat və elmi araşdırmalarını, tənqidi və ədəbi-bədii yaradıcılığını davam etdirir.

Akademik İsa Həbibbəyli ölkənin ictimai-siyasi həyatında da fəal iştirak edir. O, 1998-2005-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, 2005-ci ildən isə bu günə qədər Azərbaycan Respublikası Milli Məclisin millət vəkili kimi səmərəli fəaliyyət göstərməkdədir. O, 2015-ci ildən etibarən Milli Məclisin Elm və təhsil komitəsinin sədridir. O, Milli Məclisdəki çıxışları ilə özünün bütün gücünü, savadını respublikamızda elmin və təhsilin inkişafına sərf edir.





İsa müəllimin əsərlərinin biblioqrafiyası bir neçə dəfə çap edilmişdir. Keçən il "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından üç dildə – Azərbaycan, ingilis və rus dillərində nəşr olunmuş "Akademik İsa Həbibbəyli. Biblioqrafiya" (Bakı, Azərbaycan Milli Kitabxanası, 2018, 618 s.) sanballı kitabı (Elmi redaktorlar: akademik Teymur Kərimli və professor Kərim Tahirov; tərtibçi müəllifləri: fəlsəfə doktoru Zakirə Əliyeva və fəlsəfə doktoru Ağahüseyn Şükürov) respublika ictimaiyyətinin ürəyincə oldu. "Biblioqrafiya"dakı "Böyük ömrün illəri və əsərləri" adlı "Ön söz"ün müəllifləri – AMEA-nın müxbir üzvü Kamran Əliyev və professor Məmməd Əliyev yazırlar: "Akademik İsa Əkbər oğlu Həbibbəyli Azərbaycan ədəbiyyatşünaslığının və ictimai fikrin inkişafında xüsusi yeri olan, özünün orijinal axtarışları ilə elmimizə sanballı töhfələr vermiş görkəmli alimlərimizdəndir. Böyük ədəbiyyatşünas alimin, tanınmış ədəbiyyat tarixçisi və nəzəriyyəçinin elmi araşdırmaları Azərbaycanda ədəbiyyat haqqında elmin daha da inkişaf etdirilməsinə, ictimai fikrin əsas problemlərinin araşdırılıb ümumiləşdirilməsinə uğurla xidmət edir."

Burada İsa Həbibbəylinin kitabları, dövri mətbuatda, məcmuələrdə çap olunmuş əsərləri, elmi-tənqidi və publisistik məqalələri, rus və başqa dillərdə çap olunmuş əsərləri, tərcümələri, redaktə etdiyi kitablar, elmi məsləhətçisi,

## BƏLƏDÇİ

**Гюляр Абдуллабекова**. Ученый планетарного мышления ................................................................ .............3
**Lyudmila Səmədova**. Böyük ədəbiyyatşünas alim və nəzəriyyəçi *(Akademik İsa Həbibbəylinin 75 yaşı tamam olur)* ..11
**Aida Feyzullayeva**. Geniş diapazonlu novator-alim ............ .....24
**Şükufə Vəliyeva**. Milli ədəbiyyatşünaslığımızın təəssübkeşi.................................................................................36
**Cavidə Məmmədova**. Ədəbiyyatın dövrləşdirilməsi haqqında İsa Həbibbəyli konsepsiyası ......................... ..........................46
**Zairova Xanim.** İsa Həbibbəylinin xaricdə nəşr olunan elmi əsərləri haqqında.......................................................................55
**Ofeliya İsmayılova**. Görkəmli alim, humanist insan ...... ...........................................................................60
**Qədirova Məlahət.** Elmə fəda ömür ....................................71
**İradə Yusifova**. Böyük şəxsiyyət - əsl vətənpərvər .........................................................................79
**Mərcan Sofiyeva**. Qılınc kəsərli alim qələmi ............................88

**Fotolar** ..........................................................................................97

"Elm və təhsil nəşriyyat-1" MMC-nin direktoru:
**İNAL MƏMMƏDLİ**

Nəşriyyat redaktorları: **Maral Poladova**
Texniki redaktor: **Rəşid Kərimli**
Korrektorlar: **Zərin Vəliyeva**
**Mətanət Abdunova**

Çapa imzalanmışdır: 15.09.2024
Şərti çap vərəqi: 5.8. Sifariş: №4
Kağız formatı: 60x84 1/16. Tiraj: 100

*Kitab* **"Elm və təhsil nəşriyyat-1" MMC-də**
*hazır elektron variantdan çap olunmuşdur.*
***E-mail:*** *elm.ve.tehsil@mail.ru*
***Tel:*** *497-16-32; 050-311-41-89*
***Ünvan:*** *Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*